*Deportasiya*

# Nüvədi əzəli yurd yerimiz, döyünən ürəyimizdir

**Zəngəzur qəzasının dörd yaşayış bölgəsindən biri - Meğri rayonunun Nüvədi kəndi, onun tarixi, əhalisi haqqında eşitdiklərimi, gördüklərimi, oxuyaraq bildiklərimi yazmaq istəmişəm, lakin cürət etməmişəm. Səbəb isə Nüvədi camaatının hərtərəfli biliyə, mədəniyyətə malik olması, igidliyi, sözübütövlüyü, mübarizliyi, böyük-kiçik yeri bilməsi, əməksevərliyi, tələbkarlığı və bunun kimi müsbət xüsusiyyətləri olub.**

Nüvədi kəndinin adı 1593-cü ildə Osmanlı imperiyasının İrəvan əyalətinin İskəndər qalası livasının nahiyəsi Masırı kəndi olaraq (25 ailə) çəkilir. Nüvədi Yelizavetpol quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonunda mərkəzdən 16 kilometr şimali-şərqdə yerləşir. Kənd ziyalısı Həmzə Vəli oğlu kəndin ərazisində tapılan daşın üzərinə həkk olunmuş yazının Orxon-Yenisey yazıları ilə eyni oldugunu sübut etmişdir. Həmin yazıdan aydın görünür ki, Nüvədinin ən azı 1000-1500 il yaşı var və başı çox bəlalar çəkib.



**(davamı 7-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

1905-ci ildə ermənilər Nüvədiyə hücum edərkən kəndin qadınları da silaha sarılaraq ermeniləri qəhrəmanlıqla geri oturdmuşdular. 1918-ci ildə ermənilərlə qeyri-bərabər döyüşdə nüvədililər ağır itki verməmək üçün gecə ikən Arazı keçərək İranın Müsən kəndinə və Zəngilan rayonuna pənah aparmışdılar. Azərbaycanda və Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra nüvədililər öz ata-baba yurdlarına qayıtmışdılar. Aradan 10 il keçməmiş ermənilər bu dəfə "diplomatiya" yolu ilə Nüvədi, Ernəzir və Tuğut kəndlərini Ermənistanın Meğri rayonun tərkibinə qatılmasına nail oldular. Bu qərara qarşı Cəbrayıl qəzası Ernəzir kənd icmasının vəkili Mürşüd Qəhraman oğlu, digər məktubla isə Yusif Mövsüm oğlu Zaqafqaziya MİK-nə etirazlarını bildirsə də, "sapı özümüzdən olan balta" - Azərbaycan SSR XKS-nin sədri Dadaş Bünyadzadənin ermənipərəst mövqeyi onların haqlı tələblərinin yerinə yetirilməsinə imkan vermədi. Üstəlik, 1969-cu ilin may ayında Azərbaycan SSR Ali Soveti 40 il əvvəl qəbul olunmuş bu qanunsuz qərarı rəsmiləşdirdi.

1991-ci il avqust ayının 8-də əhalisi 1300 nəfər olan Nüvədi Azərbaycan KPMK-nın 2-ci katibi V.Polyaniçkonun bilavasitə iştirakı və xəyanətkar təkidi ilə boşaldıldı. Beləliklə, Ermənistanda yaşayan yeganə Azərbaycan kəndi 4 il çətinlik şəraitində düşmənlə üz-üzə dayanıb, qəhrəmancasına vuruşaraq əzmkarlıq göstərsə də, xəyanətin qurbanı oldu.

Nüvədi kəndindən 1937-1950-ci illərdə 30 nəfər represiyaya məruz qalmışdır. Bu məsələdə gizli rol oynayanlardan biri V.İ.Leninlə, İ.V.Stalinlə, N.S.Xruşşovla, az bir müddətdə L.İ.Brejnevlə dil tapa bilən, 40 ilə yaxın Kremldə yuva salmış, SSRİ-nin siyasi rəhbərlərindən sayılan milliyyətcə erməni A.J.Mikoyanın pərdəarxası fəaliyyəti danılmazdır. Azərbaycanın "NKVD"sində əsas simalar Qriqoryan, Markaryan, Topuridze xalqımızın qanını içənlər idi (Topuridze də milliyətçə ermənidir).

Zaqafqaziya MİK-nın mövcudluğu zamanı nəinki Nüvədi, hətta sonralar bir sıra Azərbaycan torpaqlarının Ermənistana verilməsində A.İ.Mikoyanın bilavasitə əli olmuşdur. Ona sonralar olduğu kimi əvvəl də "gözün üstə qaşın var" deyən tapılmamışdır.

Nüvədililər hamılıqla halal insanlar idilər. Adından göründüyü kimi, Məşədi Əmir, Kərbəlayi Ələkbər, Kəlbəlayi Nəbi Allahın mömin bəndələri sayılırdı. Buna baxmayaraq, 1937-ci il repressiyalarında Kəlbəlayi Ələkbər sürgündən yayınaraq İrana, oradan da İraqa getdi. Ermənilər Ələsgəri meşədə öldürdülər, daha doğrusu, güllələdilər. Məşədi Əmirlə kiçik qardaşı Mehdi öz əcəlləri ilə Zəngilanda dünyalarını dəyişdilər. Adlarını çəkdiyim bu insanlar mərhum anam Diliş xanımın anası Şərəf nənəmin qardaşlarıdır. 1956-cı ildə onlara bəraət veriləndə heç biri həyatda yox idi. Yadımdadır, Kəlbəlayi Nəbi dayımızın ömür-gün yoldaşı Şərxan xanım, oğlanları Bəhmən və Qürbət Pirçivana gələndə neçə gün toy-bayram oldu. Sonralar Bəhmən Kalinin adına zavodun Baş direktoru, Qürbət isə Energetika Nazirliyində məsul vəzifələrdə çalışırdı.

Uşaq yaşlarımda (təxminən 1951-1954-cü illər) Nüvədidən həmişə Rüstəm baba və Tutu nənə bizə gələrdilər. Olduqca mehriban və nurlu insanlar idilər. Onlar Məscid düzü məhəlləsində, bizim evdən 40-50 metr aralıda Qurban Hacıyevin evində qalırdılar. Qızları: Nigar xanım əslən Nüvədili olan Ağabəyin oğlu Hüseynlə, digər qızı Çiçək xanım isə Pirçivanlı, ömrü boyu milis sistemində müstəntiq işləyən Cəfər Cabbarovla ailə həyatı qurmuşdu. Ağabəyin böyük oğlu İdris Məlikli kəndindən böyük bacım Firəngiz xanımın baldızı Reyhan xanımla ailə qurmuşdu. Yeri gəlmişkən, onun nəvəsi Abbasova Ceyran Məhərrəm qızı hazırda Zəngilan Rayon Mərkəzi Xəstəxanasının baş həkimi vəzifəsində işləyir. Ağabəyin oğlanları İdris və Həsən Üdgün kəndində yaşamış, dünyalarını orda dəyişmişdilər.

Pirçivanda nüvədililərin demək olar ki, hamısı həm qohumlarımız, həm də qonşularımız idi Məmmədov Gülüş Dəzgah oğlu (1886-1984) böyük qardaşım Şamının qaynatası idi. 20 ildən çox Pirçivan SES-in müdiri işləmiş, Mingəçevir Su Elektrik Stansiyasından Zəngilan rayonuna elektrik enerjisi verildikdən sonra sevimli işindən ayrılmalı olmuşdur. Onun böyük bacısı Anaxanım nənənin oğlu Həsən müharibədə həlak olmuşdur.







Mən həmişə doğma Nüvədiyə baş çəkmək, oradakı qohumlarla əlaqə yaratmaq istəyirdim. Nüvədili qohumlardan biri məşhur Hüseyn bəyin nəvəsi Qaçay həkim 1966-cı ildən Zəngilan Rayon Mərkəzi Xəstəxanasında işləyirdi.

Ermənilərlə münasibətlər kəskinləşən vaxt mən Zəngilan rayon Kino-video Qurğuları İdarəsinin direktoru vəzifəsində işləyirdim. Azərbaycan KP Zəngilan rayon komitəsinin 1-ci katibi T.Mehdiyevin tapşırığı ilə həftədə üç dəfə Nüvədidə yerləşən hərbi hissənin (SSRİ-yə məxsus idi) əsgər və zabitləri üçün kinofilm nümayiş etdirirdik. Kənd camaatı da həmin filmlərə baxa bilirdilər. Məqsədimiz hərbiçilərlə yerli əhali arasında ünsiyyət yaratmaq idi. Əsasən istəyimizə nail olmuşduq. Bu da uzun sürmədi. Nüvədililər xəyanət nəticəsində 1991-ci il avqust ayının 8-də Zəngilanın Vejnəli kəndinin ərazisinə köçməli oldular.

Kənddən çıxana qədər nüvədililərdən 4 nəfəri elmlər doktoru, 37 elmlər namizədi adını daşıyırdı.

Ərazi böyüklüyünə görə Ermənistan kəndləri arasında birinci yeri tuturdu. Narı, üzümü,ənciri, şaftalısı, əriyi ilə məşhur idi. Bu meyvə bağlarının salınmasında kənd rəhbərlərindən Aslan Məmmədovun, Yadulla Quliyevin, Əhmədalı Əliyevin, Həsən Musayevin və digərlərinin böyük xidmətləri olmuşdu.

Siyasi və mənəvi təqiblərə baxmayaraq, həqiqəti SSRİ rəhbəri M.S.Qorbaçova, digər qurumlara, Ermənistan rəhbərliyinə çatdıran kənd ağsaqqalları Həzi Musayev, Abdulla Fərəcov, Cəlal Əliyev, Həsən Musayev, Əhmədalı Əliyev, Abdulla Fərəcov, Mail Amanov və başqaları əsil qəhrəman idilər. Xüsusilə, Həzi Musayevin Meğri rayonunun prokuroru Zöhrab Harturyana yazdığı açıq məktub cəsarət, qorxmazlıq və qətiyyətin bariz nümunəsi idi.

Dədə-baba yurdundan məkrlə, hiylə ilə köçürülmə (daha doğrusu, qovulma) torpaq qeyrətli nüvədililərin, xüsusilə yaşlı nəslin ömrünə balta vurdu. Bu ayrılığa tab gətirməyən insanların xeyli hissəsi vaxtından əvvəl haqq dünyasına qovuşdular.

Nüvədinin Zəngilana birləşdirilməsi barədə XDS-nin sessiyasında çox mühüm respublika əhəmiyyətli qərar qəbul edildi. Bununla da 11,5 min hektar Nüvədi torpaqları ilə bərabər, 2,5 min hektar "Sükrətaz" yaylaqlarından ermənilərə verilmiş torpaqlar faktiki olaraq yenidən Zəngilana birləşdirildi. Sessiyanın qərarı təsdiq olunmaq üçün Ali Sovetdə Zəngilandan ikinci deputat Güllər Bədəlova bu haqda məruzə etdi.



Ulu Öndər Heydər Əliyev çıxışlarından birində T.Bədəlovanın bu təklifini alqışladığını bildirmişdi. Çox təəssüf ki, müzakirələr zamanı bəzi deputatlar həmin qərarı müdafiə etmədilər. Yalnız "Araşdırıcı komissiya" yaratmaqla bu tarixi əhəmiyyətli işdən boyun qaçırdılar.

1992-ci ilin fevral ayında Xocalı faciəsi, may ayında Şuşanın və Laçının işğalı, dekabr ayının 10-da Zəngilanın strateji yüksəkliklərə malik 10 kəndinin zəbt edilməsi bu vandalizmə görə Müdafiə Nazirliyinin laqeydliyi, əsl həqiqəti gizlədərək itirilən kəndləri, torpaqları "kiçicik bir, iki təpəcik" adlandırması Zəngilanın bütünlüklə işğalına "yaşıl işıq" yandırdı.

1993-cü ilin oktyabr ayının axırlarında zəngilanlılar nüvədililərlə birlikdə rayonu tərk etməli oldular. Hələ Zəngilanda ikən Nüvədidən olan 1965-ci il təvəllüdlü Şahməmədov Yanvar Famil oğlu Qazançıda xidmət edərkən 1992-ci ilin sentyabr ayında 16-da atışmada şəhid oldu. Ondan iki gün sonra, sentyabr ayının 18-də Ermənilərin Vejnəli postuna hücumu zamanı nüvədili 1968-ci il təvəllüdlü Hüseynov Orxan Şahsuvar oğlu qəhramancasına vuruşaraq şəhid oldu.

Əminəm ki, Azərbaycanın işğaldan azad olmuş bütün torpaqları kimi, Prezident cənab İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Qərbi Azərbaycan torpaqları, o cümlədən Nüvədi kəndi də azad olunacaq. Vaxt gələcək, Nüvədi sakinlərini öz qoynuna alacaq. O zaman bu dünyadan nigaran gedən minlərlə insanın ruhu şad olacaq. O günlər isə uzaqda deyil.

**Asif BAĞIROV,**
**Zəngilan rayon sakini.**

Respublika .- 2025.- 8 iyul (№ 137).- S.7.